# “Bu il sadəcə ana olmaq istəyirəm”

## Bergüzar Korel: “Ömrüm boyu öz işimlə məşğul olacam. Ancaq oğlum heç zaman bir də 5 yaşında olmayacaq”



**Türkiyənin tanınmış siması, aktrisa Bergüzar Korel mövsüm sonunda Türkiyə mətbuatına müsahibə verib. Müsahibəsində 30 yaşlı qadının özünü necə hiss etməsindən, məşhur aktrisanın necə ev xanımına çevrilməsindən danışıb. Həyat yoldaşı tanınmış aktyor Halit Ergenc ilə xoşbəxt olduğunu, evliliyin həyatını asanlaşdırdığını deyən Bergüzar yeni mövsümdə heç bir layihədə rol almaq niyyətində deyil. Səbəb isə yeni mövsümdə bütün zamanını övladına həsr etmək istəyidir.**

**- Bergüzar xanım, ”Karadayı” serialı artıq sona çatdı. Böyük bir layihəni başa vurduqdan sonra özünüzü necə hiss edirsiniz?**

- Üç ildir ki, həyatımda ”Karadayı” və serialın yaradıcı heyətindəki insanlarla münasibətlərim hakim mövqe tutub. Biz onlarla bir ailəyə dönmüşdük. Normalda seriallar bitdikdən sonra insanlar arasında soyuqluq yaranır, ancaq ”Karadayı” seralında hər şey başqa cürdür. Biz komanda şəklində hər şeylə xırdalığına qədər maraqlanan, əyləncənin dadını çıxaran və bir-birlərinə hörmət edən yaradıcı heyət idik. İnanıram ki, bundan sonra da hər şey olduğu kimi davam edəcək. Məncə, ”Karadayı” serialının çox sevilməyinin əsas səbəbi budur. Tamaşaçıların sevgisini komanda ilə birlikdə qazanmışıq. Serialın son bölümünün çəkilişləri zamanı rejissorumuz bizə bildirdi ki, bu qədər fərqli xarakterli insanların bir yerə toplaşdığı yaradıcı heyətlə heç zaman işləməyib və bir-birlərindən tamamilə fərqli insanların bir yerdə rahat şəkildə mehriban çalışdığını ilk dəfədir ki, görür. Doğrudan da ekranda necə bir canlılıq görürsünüzsə, kameranın arxasında da eyni səmimiyyət var idi. Hər kəs bir-birini çox yaxşı tanıyırdı. Serialın yayımlandığı bu üç il müddətində xoş günlərlə bərabər, böyük itkilər də verdik. O zamanlarda da bir-birimizin yanında olduq, köməyinə çatdıq. Hesab edirəm ki, bundan sonrakı həyatımda da onların yeri görünəcək. Onu xüsusi ilə qeyd etmək istəyirəm ki, Ay Yapım və Kerem Çatay ilə işləmək xüsusilə insana bol enerji verir. Mən onlarla işləməkdən zövq aldım.

**- Təbii ki, bu vəziyyət tamaşaçılara da təsir etdi.**

- Əlbəttə. Bunun üçün də bizi heç zaman tək qoymayıb, hər bölümümüzü izləyən tamaşaçılarımıza təşəkkürümü bildirirəm. Serialın final bölümündən sonra sosial şəbəkələrdə gözəl şərhlər aldım. Əslində həyatdan ümidini üzmüş küskün insanların serialın bir bölümünü izləyib, Mahir və Fəridənin sevgisinə sahib olub, həyata iki əlli bağlanmalarını görmək məni çox xoşbəxt edir. Onların sevdasına daxil olan, səsləndirdikləri ifadələr məni çox təsirləndirirdi.

**- Sizcə, serialın final bölümü ilə tamaşaçının istəyi üst-üstə düşdümü?**

- Serialın son bölümünün anonsları yayımlandıqdan sonra mənə çoxsaylı müraciətlər olundu. Hətta evdəki anam belə məndən xahiş etdi ki, bölümün sonunu ona deyim. Ancaq hətta ona da final bölümü efirdə nümayiş olunmayanadək heç nə demədim. Ssenarinin 20 səhifəsi final bölümündə iştirak edən aktyorlara verildi. Serialın ikinci sezonunda ssenaristlərimizlə final haqqında danışarkən hər zaman xoşbəxt sonluq gözlədiyimizi deyirdik. Axı Mahir və Fəridə sevdaları və ədalət üçün çox mübarizə aparmışdılar. Biz də burada ədalətin, xeyirxahlığın, yaxşılığın hələ də keçərli olduğunu, güclünün deyil, haqlı olanın qazandığını göstərmək istədik.



**- 3 illik böyük layihədən sonra necə istirahət edəcəksiniz?**

- Hazırda heç bir layihədə iştirak etmək istəmirəm. İl ərzində o qədər işləmişəm ki, bunun ən böyük zərərini oğlumuz Əli görüb. Üstəlik, çox işləməyimə baxmayaraq, bacardığım qədər oğluma çox zaman ayırmağa çalışmışam. İşdə mənə elə komfort yaratmışdılar ki, Əli çəkilişlərə gələndə ona evdəki şəraiti yarada bilirdim. Ancaq bu il sadəcə ana olmaq istəyirəm. Məhz bu səbəbdən uzun müddət istirahət etməyi düşünürəm.

**- Yeni yeni mövsümdə sizi efirdə görə bilməyəcəyikmi?**

- Yeni təkliflər almışam, ancaq bir müddət işləmək istəmədiyim üçün hər kəs niyyətimi bilir, ona görə israr etmirlər. Həm fiziki, həm də mənəvi olaraq çox yorulmuşam. Çox güclü zehnim olduğu halda, serialda ifadə etdiyim sözləri yadımda saxlaya bilmirdim. Son bölümlərdə hiss edirdim ki, bu baxımdan çətinlik çəkirəm. ”Karadayı” serialında iştirak etmək mənim üçün doğru zamanda doğru verilmiş bir qərar oldu. Bundan sonra da çox düşünüb, ən doğru qərarı verib, tamaşaçının qarşısına elə çıxacağam. Bu serialdan sonra anladım ki, aktrisa üçün doğru layihə çox önəmlidir. Canlandırdığım obraz olan Fəridə çox səmimi bir xarakter idi. Aşiq, uşaq təbiətli, küskün bir qadın idi. Bu obrazımla qadına xas olan xüsusiyyətləri tamaşaçıya göstərmə şansı əldə etmişdim. Bu obraz mənə uğur gətirdi.

**- İndiyə qədər iki fərqli film layihəsində yer almısınız. Serialdan fərqli olaraq film qısa zaman çərçivəsində çəkilir. Filmlərdə necə, sizi görə biləcəyikmi?**

- Türkiyədə filmlər daha çox mövsüm sonlarında - yayda çəkilir. İndi filmlərin çəkilmə ərəfəsi olsa da, hazırda çox yorğunam. Bilirsiniz, mən ömrüm boyu öz işimlə məşğul olacam. Ancaq mənim oğlum heç zaman bir də 5 yaşında olmayacaq. Ona görə də əgər məni həyəcanlandıran bir layihə yoxdursa, onu qəbul etməkdənsə ailəmlə zaman keçirməyi üstün tuturam. İstirahət zamanı mənə dünyanın ən gözəl film təklifi gəlsə də, qəbul etmərəm.

**- Siz özünüz də aktyor ailəsində böyümüsünüz. İndi həyat yoldaşınız da aktyordur. Aktyor ailəsində böyümək necə bir duyğudur?**

- Valideynlərim aktyor sənəti ilə məşğul olsalar da, bizim hər kəs kimi normal bir ailə şəraitimiz var idi. Anam və atam qapıdan içəri girəndə hansı peşənin sahibi olduqlarını unudurdular. Belə ki, mən dərsdən evə gələndə anam hər zaman evdə olurdu. Məni öz əli ilə yedizdirib, içirirdi. Hər gün masanın ətrafında bütün ailə oturar, yeməyimizi yeyərdik. İndi də həyat yoldaşımla övladımıza eyni həyatı verməyə çalışırıq. Ancaq aktyor ailəsində böyüməyin pis tərəfləri də var. Misal üçün, bəzi günlər atamla anam gec saatlara qədər işlədikləri üçün evdə tək qalmalı olurdum. Evdə özümə qulluq etməyi öyrəndim, çətinliklər çəkdim. Bu da yaşımın az olmasına baxmayaraq, məsuliyyətimi artırırdı. Yaşım az olsa da, valideynlərim evdə olmadığı günlərdə evləri təmizləyir, yemək bişirirdim. Bu da məni sonrakı həyata hazırlayırdı.

**- Sizcə, övladınız Əli də gələcəkdə aktyor ola bilərmi?**

- Əli daha çox musiqi ilə maraqlanır. Otağı kiçik disklərlə doludur. Son zamanlar davamlı olaraq Daft Punkun mahnılarını dinləyir. Musiqi duyumu çox gözəldir. Həyat yoldaşımla mən onun həyatına müdaxilə etmirik. Nə istəyirsə, onu da edir. O tam bir musiqi aşiqidir.

**- Sizin həyat yoldaşınız da aktyordur. Bu sizə hansı üstünlükləri verir?**

- Həyat yoldaşımın da aktyor olması mənim üçün bir çox rahatıqlar yaradır. Belə olan halda bir-birimizə qarşı anlayışlı oluruq. Halit də, mən də iş rejimimizi rahat şəkildə qururuq. Birlikdə sənətimizin yaratdığı çətinliklərə sinə gəlirik. Bizə ssenari təqdim olunanda hekayəni paylaşmaq və qarşılıqlı müzakirə etmək mənim üçün çox müsbət təsir bağışlayır. Misal üçün, bu il Halit işləmədi və mən işlədiyim üçün Əli ilə o maraqlandı, oğlumuzla daha çox vaxt keçirdi. Yeni mövsümdə o, işləyəcək, mən də evdə oğluma baxacağam. Növbəni ondan geri götürəcəm. Ancaq bunun pis tərəfləri də var. Halit ”Muhteşem Yüzyıl” serialına çəkiləndə mən də ”Karadayı” serialında rol almışdım. Həmin ərəfələrdə demək olar ki, bir-birimizi görə bilmirdik. O çətin günləri də yola verdik. Belə vəziyyətlərdə bir-birimizə qarşı anlayışlı olduğumuz üçün özümüzü şanslı cütlük hesab edirik.

**- Sizi sosial şəbəkələrdə çox görürük. Nə üçün sosial şəbəkələrdə başqa adla qeydiyyatdan keçmisiniz?**

- Əvvəllər ”Instagram”-da öz adımla qeydiyyatdan keçmişdim. Sonradan adımı dəyişdirib ”patitis” qoydum. Ancaq bunun da heç bir xeyri olmadı. Baxdım ki, izləyicilərim rekord həddədir. Ona görə ad dəyişməyin bir mənasının olmadığını görüb, yenidən öz adımı qaytardım. Bilirəm ki, paylaşdığım hər şəkil milyonlarca insana görünür. Ona görə paylaşdığım hər şəklə diqqət edirəm.

**- Bəlkə ona görədir ki, özəl həyatınızla bağlı şəkillər paylaşmırsınız.**

- Bəli. Tez-tez mənə ”Nə üçün övladınızla həyat yoldaşınızın şəkillərini paylaşmırsınız” deyə suallar verirlər. Özəl həyatda yaşadığım hər şeyi sosial mediada paylaşmağın tərəfdarı deyiləm.

**Xəyalə Rəis**